# Novruzun zəfər boyaları

## “Müharibəli Novruz” rəngkarlıq tablosu bayrama həsr olunmuş sənət nümunələrinin ən təsirlisidir



**Ziyadxan Əliyev,**
**Əməkdar incəsənət xadimi, professor**

**Ölkəmizin müstəqillik qazanmasından sonra qeyd olunan bayram günləri nə qədər çox olsa da, bir milyondan çox ölkə əhalisinin baxışlarından duyulan yurd həsrətinə dörd ay əvvəl son qoyulmasının, builki Novruz bayramına xüsusi və əvəzolunmaz rəng qatması danılmazdır. Bu mənada rəssamlarımızın zaman-zaman yaratdıqları Novruz ünvanlı rəngkarlıq və qrafika əsərlərinin estetikasına yeni-duyulası nikbin baxışda, onun xəyalən həm də çeşidli və təsirli Zəfər boyalarına bələndiyini vurğulamaq istərdik...**

Novruz bayramının qeyd olunması qədim tarixə malik olsa da, onun ənənələrinin insanlara bəxş etdiyi sevinc hisslərinin bədiiləşdirilməsinə çox gec - sovet dönəmində başlanıb. Rəssamlıq məkanımızda milli kadrların azlığı qabarıq duyulduğu ötən əsrin otuzuncu illərində bu addımı Xalq rəssamı Əzim Əzimzadə atıb. Heç şübhəsiz, bu, bərqərar olduğu gündən milli dəyərlərin qorunmasına və təbliğinə dolayısı maneələr yaradan Kreml ideoloqlarının xoşuna gəlməsə də, o zamanlar təsviri sənətimizin şəriksiz lideri olan görkəmli karikatura ustası milli bayramımızın ənənələrinin bədiiləşdirilməsini həm də özünün vətəndaş borcu saymışdı. Bayramın çoxsaylı ənənələrinin mövcudluğu, rəssama bu mövzuda sözün əsl mənasında silsilə əsərlər yaratmağa imkan vermişdir. Bu mənada ”Novruz bayramı” (1930 və 1938), ” Kos-kosa oyunu” (1930), ”Kəndirbaz” (1935 və 1938), ”Tonqal üstündən tullanmaq” (1937), ”Şeytan, təlxək və keçəl” (1939) əsərləri adət-ənənələrimizin qorunması və gələcək nəsillərə çatdırılması baxımından xüsusi əhəmiyyət kəsb edir.

”Novuz bayramı” (1930) əsərində rəssam Novruzun gəlişini davranışlarında əks etdirən Bakı əhalisini görüntüyə gətirmişdir. Qədim məkanda cərəyan edən süjetə daxil edilmiş çoxsaylı insan obrazları o hərəkətləri ilə bayram ovqatını əyaniləşdirmişlər. Ümumi kompozisiyanı yaxın-uzaq və orta plana bölən rəssam, onlar arasında axıcı-ritmli əlaqə yaratmaqla, son nəticədə əsərin bədii bütövlüyünə nail olmuşdur.

Zamanında paytaxtın hər bir məhəlləsində peyda olması ilə ətrafına çoxlu tamaşaçı toplayan kəndirbazlara iki qrafik lövhə (1935 və 1938) həsr edən rəssam, bu əsərlərində onların insanlara bəxş etdikləri sevinc hisslərinin ifadəsinə çalışmışdır. ”Kos-kosa oyunu”nu (1930) bədiiləşdirən görkəmli fırça ustası Novruz bayramında əhalinin sevə-sevə izlədiyi əyləncənin məzmununu və nikbin ovqat daşıyıcılığını göstərmək istəmişdir.

”Od üstündən tullananlar” (1937) əsərində də daha bir bayram ənənəsinin bədiiləşdirilməsinə şahidlik edirik. Dünyamızın yaranmasında duyulası rolu olduğuna inamı olan insanların Novruzun gəlişi ilə odu xatırlamaları da təsadüfi deyil. Rəssam, bu mərasimə uşaqlarla yanaşı yaşlıların da münasibətini əyaniləşdirməklə, çox cəlbedici bir lövhənin yaradılmasına nail olmuşdur.

Sovet dönəmində - ötən əsrin altmışıncı illərində Novruzun ümumxalq bayramı kimi qeyd olunmasına nail olunandan sonra, onun tarixinə rəssamlarımızın müxtəlif nəsillərinin bədii münasibətini şərtləndirmiş oldu. Bunun nəticəsində xalqımız üçün çox əziz olan bu bayramın tarixini, onun qan yaddaşımızda əbədiləşdirməsinə səbəb olan ənənələrini əks etdirən əsərlərdən ibarət bədii ”Novruz ensiklopedyası” yarandı.

Bu, çox əhəmiyyətli bədii saxlancda Xalq rəssamı Səttar Bəhlulzadənin yaratdığı ”Azərbaycan nağılı” tablosu xüsusi yer tutur. Onun 1970-ci ildə çəkdiyi monumental tutumlu ”Azərbaycan nağılı” tablosu bu vaxta kimi bu mövzuda yaradılmış ən yaddaqalan əsər sayılır. Bu lövhədə süjetli tablo, mənzərə və natürmort janrlarını uğurla birləşdirən rəssam, kompozisiyanın kifayət qədər təsirliliyinə nail olmuşdu. Doğrudan da zirvəsi qarlı dağların ətəyində təsvir olunmuş başı xonçalı qız-gəlinlərin, budaqları qaranquşlu gül açmış ağacların və ön planda təsvir olunmuş bayram xonçasının vəhdətini özündə əks etdirən iri tabloda Novruzun nikbin və ovqatyaradıcı ruhunu duymaq mümkün idi. Onun mavi, zümrüdü, çəhrayı və bəyaz rənglərlə ifadə etdiyi xoş əhval-ruhiyyə cəlbedici və yaddaqalan idi...

S.Bəhlulzadə sonrakı illərdə də bu mövzuya marağını azaltmamış və bir-birindən maraqlı əsərlər yaratmışdı. Onun bahar ətirli lövhələrində, həm də bu mövzunun tükənməzliyini görmək mümkündür. Rəssamın ”Bahar nəğməsi”, ”Yaşıl xalı”, ”Xonçalar”, ”Gəlin guşəsi”, ”Bahar gələndə”, ”Oyanış”, ”Lalələr”, ”Piti”, ”Yaşıl xalı”, ”Nərgizlər”, ”Heyva çiçəkləyəndə” lövhələri bunu təsdiqidir...

Etiraf edək ki, ötən əsrin son qərinəsində və yeni yüzilliyin arxada qalan iyirmi ilində Novruz ünvanlı çoxsaylı əsərlər yaradılsa da, ənənəvi mövzuya yeni baxış çox az hallarda müşahidə olunmuşdur. Bu mənada tanınmış qrafika ustası, Xalq rəssamı Arif Hüseynov və Ağəli İbrahimovla yanaşı, çoxlarının tanımadığı Nəcməddin Hüseynovun yaratdığı unikal tutumlu əsərinin adını çəkmək istərdik.

Arif Hüseynovun yaratdığı ”Novruz” qrafik silsiləsini, sözün əsl mənasında bayramın bədii ensiklopediyası hesab etmək olar. Belə ki, burada neçə - neçə bayram oyunu - əyləncəsi yer almışdır. Rəssamın ”Kəndirbazlar”, ”Qulaq falı”, ”Yumurta döyüşdürənlər”, ”Novruzda”, ”Əjdaha ili” və s. əsərlərində Novruz bənzərsiz ruhunu duymaq mümkündür. Bu qrafik nümunələrin bədii həllində miniatür estetikasından yaradıcılıqla istifadə, həmin əsərlərə özünəməxsus milli ruh bəxş etmişdir desək, həqiqəti söyləmiş olarıq. Onun Novruz ünvanlı əsərləri bu günlərdə Azərbaycan Milli Xalça Muzeyində təşkil olunmuş fərdi sərgisində nümayiş etdirilmişdir.







Xalq rəssamı Ağəli İbrahimovun 1984-cü ildə çəkdiyi çoxfiqurlu rəngkarlıq tablosu zamanında bədii məkanımızda hadisə kimi dəyərləndirilmişdi. Qədim bayramı, əsərində el sevincinə çevirməyi bacaran rəssamın kompozisiya daxili estetikanı milli ruha bələyə bilməsinin sayəsində, iri ölçülü tablonu cəlbedici və yaddaqalan mənəvi dəyər daşıyıcısına çevirə bilmişdi...

Qənaətimizcə, Qazax rayonunda yaşayan Nəcməddin Hüseynov tərəfindən ərsəyə gətirilən ”Müharibəli Novruz” rəngkarlıq tablosu bütün dövrlərdə bayrama həsr olunmuş sənət nümunələrinin ən təsirlisidir. Burada Qarabağ cəbhəsindəki əsgərlərimizin bayram süfrəsi təsvir edilmişdir. Cəbhədəki gərgin vəziyyət əsgərlərə səməni göyərtməyə imkan vermədiyindən, onlar yaşımtıl rəngə çalan döyüş güllələrinin belinə qırmızı parça zolaq bağlamaqla, onu ”səməni”yə döndərmiş, rəngli yumurtaları isə iki döyüş qumbarası ilə əvəzləmişlər. Bu, doğrudan da obrazlı bədii ifadəsinə görə çox gözlənilməz və təsirli bir kompozisiyadır...

Gənc və istedadlı fırça ustası Cavid İsmayılovun ”Novruz axşamı” və ”Novruz” əsərlərində əziz bayramın aşıladığı nikbin hiss və duyğuların ümumiləşdirilmiş təqdimatı yaddaqalandır. Bədii təfsirlə ifadə olunan bu süjetlərdəki rəng və yaxı ritminin yaratdığı cəlbedicilik, ilk növbədə yüksək müəllif sənətkarlığının göröntüsüdür.

Görkəmli qrafika ustası, Xalq rəssamı Altay Hacıyevin (”Bahar qızı”, ”Novruz oyunları” və ”Novruz duyğuları”), Xalq rəssamı Fərhad Xəlilovun (”Bayramda”), tanınmış rəngkar Vaqif Ucatayın (”Novruz süfrəsi” və Novruz Pəhləvan”), Xalq rəssamı Rasim Babayevin (”Bayramda”, ”Novruz” və ”Bayram yükü”) və Xalq rəssamı Sakit Məmmədovun (”Bahar qızı”) əsərlərində bayram sevinclərinə tutulan ”bədii güzgü” duyulası nikbinliyi ilə yadda qalır.

Rəssamlarımızın Novruz qayğılarına həsr olunmuş əsərləri də etnoqrafiyamızın zənginliyini əks etdirən qürurverici mənəvi qaynaq hesab etmək olar. Xalq rəssamları Elmira Şahtaxtinskayanın ”Bayrama hazırlıq”, Cəmil Müfidzadənin ”Bayram yaxınlaşanda”, Elbəy Rzaquliyevin ”Novruz bayramı”, Xalidə Səfərovanın ”Novruz”, Tofiq Ağababayevin ”Bayramınız mübarək”, Mayis Ağabəyovun ”Nağıllı Novruz”, Əməkdar rəssam Ələkbər Rzaquliyevin ”Gəlinə bayram hədiyyəsi aparırlar”, Arif Ələsgərovun ”Kəndirbazlar”, eləcə də Günay Mehdizadənin ”Bahar qızı”, Vüqar Əlinin ”Novruz qaranquşları”, Orxan Hüseynovun ”İçərişəhərdə bayram” və b. əsərləri bu qəbildəndir.

Dekorativ-tətbiqi sənət ustalarımız da xalqımız əziz bayramına öz yaradıcılıq töhfələrini vermişlər. Bu mənada görkəmli xalça ustası, Xalq rəssamı Eldar Mikayılzadənin, keçəçi Rauf Əbdülhüseynoğlunun, keramika ustası Nailə Sultanın və rəssam Sənubər Səmədovanın adını çəkmək olar.